# MİLLİ İQTİSADİ İNKİŞAFLA BAĞLI MODELİN SAHİBKARLIQ HİSSİ TƏRBİYƏSİNƏ VƏ İNCƏSƏNƏT MENECMENTİNƏ TƏSİRİ

**Lətifə Ələkbərova,**
*dosent, əməkdar mədəniyyət işçisi*
E-mail: latifaalakbarli@gmail.com

**Rəyçilər:** *ped.elm.dok., prof.* F.B. Sadıqov,
*iqtis.ü.fəls.dok., dos.* R.F. Sadıqov

***Açar sözlər:*** *iqtisadi inkişaf, milli iqtisadi model, menecment konsepsiyası, incəsənət menecmenti, sahibkarlıq hissi tərbiyəsi.*

***Ключевые слова:*** *экономическое развитие, модель национальная экономическая, концепция менеджмента, менеджмента искусства, воспитание чувства предпринимательства*

***Key words:*** *economic development, national economic model, management concept, management of art, education of entrepreneurship*

Ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar müvafiq direktiv sənədlərin tələbləri əsasında həyata keçirilir. Hansı ki, həmin direktiv sənədlər yeni sahibkarlıq obyektlərinin və subyektlərinin yaranmasına da istiqamət verir. Yeni sahibkarlıq obyektlərinin yaradılması milli iqtisadi model əsasında müəyyənləşdirildikdə yaradıldıqda onun inkişaf perspektivləri reallaşmış olur.

Bu baxımdan professor, doktor Haydar Başın yaratdığı Milli İqtisadi Model mühüm əhəmiyyət kəsb edir. Sahibkarların həmin iqtisadi modelə istinad etmələri isə çox faydalıdır.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, ali məktəblərin iqtisadiyyat təmayüllü fakültələrində tələbələrin Milli İqtisadi modellə tanış olmaları faydalı olar. Çünki, istər gələcək iqtisadiyyatçılar, istər maliyyəçilər, istər audit ixtisasına yiyələnənlər, istərsə də sənaye və kənd təsərrüfatı mütəxəssisləri Milli iqtisadi modeldən istifadə etməklə hər hansı sahibkarlıq mövqeyi qazanmış olarlar. Milli İqtisadi Model həm də tələbələrin sahibkarlıq hissi tərbiyəsini inkişaf etdirmiş olar. Milli İqtisadi Modellə tanış olan tələbələr bir sıra digər zərərli iqtisadi modellərə də münasibətlərini bildirə bilərlər. Ümumiyyətlə desək iqtisadiyyatın nəzəri əsaslarını müqayisəli şəkildə öyrənmək çox faydalıdır.

XX əsrin ikinci yarısında iqtisad elmində, nəzəriyyəsində özünə zidd anlayışları inkar edən, Qərb dövlətlərinin nəzarətində olan dövlət iqtisadi siyasətini formalaşdıran və həmin ölkə gənclərinə Universitet kitablarında tədris edilən liberal monetarist anlayışının sözsüz inhisarı mövcud olmuşdur. Bu anlayışa uyğun gəlməyən bütün nəzəriyyə və tədqiqatlar, problem və nəticələr elm adamlarının, siyasətçi və tələbələrin diqqətindən kənar edilir, həm də əhəmiyyətsiz istisnalar hesab edilir və yaxud da "iqtisadiyyatın" əsas qanunlarına əlavə hesab edilirdi. Beləliklə, "elmin əsas banisi" iqtisad elminin "*main stream*"i yer üznün boyük hissəsinin həyatı üçün dərin problem və təhlükə olan sosial-iqtisadi həyat problemləri və reallıqlarını yalnız qismən əks etdirir. Real problemlərin həllini arxa plana çəkir. Reallıq isə liberal-iqtisad elminin təsiri altında axıb gedir (1, 35). Ona görə ali məktəblərin iqtisadiyyat təmayüllü fakültələrində təhsil alanların bir sıra müasir iqtisadi modellərlə tanışlığı onların gələcəkdə həm bir iqtisadçı, həm də sahibkar kimi yetişmələrinə kömək etmiş olur. Milli iqtisadi modelin önəmli cəhətlərindən biri bu modelin insan mənəviyyatı ilə də bağlılığıdır.

Bir sıra İslam təəssübkeşlərinin özünə müəllim hesab etdiyi, dərin inama sahib olan bir insanın iqtisadiyyat kimi dünyəvi elmdə parlaması təsadüfi deyildir. İşin əsası budur ki, müasir iqtisadi nəzəriyyə və mövcud dünya iqtisadi sistemi fərdin və çoxluğun hədəfi olaraq sadəcə maddi və maliyyə vasitələri onların məsələlərinin təşkili məqsədlərini ön plana çəkir. Bu kateqoriyalar sistemində isə insanlıq qarşısında duran problemlərin, xüsusən də iqtisadi sahədə olan problemlərin həlli yoxdur. İnsanlığın ilkin fiziki ehtiyaclarının ödənilməsini getdikcə asanlaşdıran texniki və istehsalın təşkilinin inkişafi

iqtisadi proseslərin iqtisadi olmayan amillərə: siyasi, sosial və ilk növbədə geniş mənada mənəvi şərtlərə ciddi şəkildə bağlı olması reallığını ortaya qoymuşdur.

Prof. Dr. Haydar Baş ”Cəmiyyətin pozitiv və ya neqativ vəziyyəti-bu cəmiyyəti formalaşdıran insanların daxili təbiətini bilavasitə əks etdirməsidir”-ifadəsini yazmışdır (1, 36).

Əslində sahibkarlıq hissi insan mənəviyyatı ilə bir başa bağlıdır. Niyə? Birincisi, ona görə ki, sahibkarlıqla məşğul olan adamların bütün mənəvi keyfiyyətləri bu işlə məşğul olmağa imkan verməlidir. İkincisi, sahibkarın milli və ümumbəşəri dəyərlərə istinad etməsi vacibdir. Üçüncüsü onun fəaliyyəti, fərdi təsərrüfatının bütün müvəffəqiyyəti ailəsi ilə yanaşı, ətraf mühitin, xalqın və ən ümdəsi dövlətin mənafeyinə xidmət etməlidir. Başqa sözlə desək sahibkar gördüyü bütün işlərində xalqa Vətənə və Dövlətə güvənməlidir.

Milli İqtisadi Modelin müstəsna əhəmiyyətli prinsipi ölkənin hər sosial qrupunun maddi rifah səviyyəsinin yaxşılaşdırılmasında cəmiyyət və dövlətin məsul olmasıdır. Bu prinsip, dövlətin iqtisadiyyata müdaxiləsini minimuma endirən liberal ideologiyanı rədd edir.

Bazar və rəqabət gücləri müəllifin dediyi kimi struktur qeyri bərabərliyini (Prof. Dr. Haydar Başın termini ilə ”struktur kəsiri”) təkbaşına aradan qaldırıla bilməz. Bunu yalnız güclü və müstəqil dövlət edə bilər (1, 37)

Milli iqtisadi modellə ali məktəbin həm təlim prosesində, həm də auditoriyadankənar tədbirlər prosesində tanış olmaq mümkündür. Ona görə də iqtisadiyyat təmayüllü fənlərin tədrisi prosesində yeri gəldikcə Milli iqtisadi Model haqqında müvafiq məlumatların, informasiyaların verilməsi çox faydalı olardı. Ona görə ki, tələbələrin Milli İqtisadi modelin milli xüsusiyyətləri, bazar iqtisadiyyatındakı rolu barədə informasiyalarla tanışlığa zəruri ehtiyac var.

Qeyd etmək lazımdır ki, milli iqtisadi model həyatın yalnız bir istiqamətini əsas götürən hər hansı özəl model deyildir. O, sistemli yanaşmanı təşkil edir və bu sistem bir tam kimi həyata keçirilməlidir. Buna görə modelin bir istiqamətini əsas götürərək o biri istiqamətlərini unutmaq olmaz. Prof. Dr. Haydar Başın sistemli yanaşması Milli İqtisadi Modelin əvəzsiz model olduğunu göstərir. Çünki bu günə qədər olan iqtisadçılardan hələ heç kim iqtisadi problemləri tam şəkildə əhatə edə bilməmişdir.

Milli İqtisadi Modelin daha bir özəlliyi isə iqtisadiyyatdakı dizbalansın həqiqi səbəbini-istehsal və istehlak arasındakı kəsiri göstərməsidir. Prof. Dr. Haydar Baş bu kəsirin baş vermə səbəblərini dəqiq şəkildə təhlil etməklə və bu problemin həlli metodlarını inandırıcı şəkildə göstərmişdir. Bu məqsədlə istehlak qruplarının onların yığım meyllərinə uyğun olaraq təsnifatının aparılması orijinal yanaşmadır (1, 43).

Milli İqtisadi Modeldəki İqtisadi güc anlayışı ilə tələbələrin tanışlığı yaxşı olardı Ona görə ki, tələbələr “İqtisadi güc” anlayışına məxsus olan dinamik iqtisadi inkişafın bir sıra cəhətləri, əlamətləri ilə yaxından tanış ola biləcəklər. Bu, isə tələbələrin gələcəkdə bir iqtisadçı kimi yetişməsinə istiqamət verəcəkdir.

İqtisadi güc bəşəriyyət tarixində baş vermiş hadisələrin səbəb və nəticə əlaqəsində mühüm amillərdən biridir. Tarixi hadisələrə istiqamət verən amillər arasında iqtisadi gücün təsiri son iki yüz ildə daha çox artmış, dövrümüzdə isə artıq aparıcı rol oynamağa başlamışdır. Bunun əsas səbəbi kimi müasir insanın insani dəyərlərə bağlantısının azalmasını və daha materialist bir anlayışın hakim olmağa başlamasını göstərmək olar. Bəşəriyyət, bir tərəfdən ifrat dərəcədə istehlakçı, digər tərəfdən isə, aclıqdan ölümə məhkum olan iki əsas əhali təbəqəsinin birinə daxil olma nöqtəsinə gəlmişdir. Bu iki qütb arasında qalmağa məcbur olan kütlə isə əriməyə başlamışdır. Beləliklə, insan nəsli öz varlığını yox etməyə yönəlmiş təhlükəli vəziyyəti də öz əli ilə yaradır.

Belə bir vəziyyətin yaranmasında XI-XX əsrlərdə tətbiq edilən iqtisadi sistemlərin böyük rolu vardır. Hətta dövlətlər tətbiq etdikləri əsas iqtisadi sistemlərdən asılı olaraq iqtisadi ittifaqlar yaratmış və son dövrlərdə mübarizə də bu birliklər arasında özünü göstərirdi. Bu sistemlərdən liberalizmi ön plana çıxaran birlik dünyada təkbaşına qaldıqdan sonra cəmiyyətin inkişafında yeni mərhələ başlamış,qlobal sərmayənin mütləq hakim olduğu yeni dünya nizamı meydana gəlmişdir. Dünya artıq kiçik bir kəndə çevrilmişdir (1, 52).

Keçmiş SSRİ məkanında iqtisadiyyatla bağlı qurumlarda liberalizm, ideoloji aparatın hökmləri sərbəst iqtisadi inkişafın qarşısını alır-

dı. İqtisadi inkişafın sosializm prinsiplərinə, kommunizm quruculuğunun tələblərinə uyğunlaşdırılması formalizm gətirib çıxarırdı. Nəticədə iqtisadiyyatın inkişafı ideoloji yanaşmalara, saxta planlaşdırmalara məruz qalaraq cəmiyyətin inkişafına heç bir fayda vermirdi. Nəticədə yoxsulluq amilləri özünün göstərirdi.

Müstəqillik qazandığımız illərdən başlayaraq, xüsusilə müstəqilliyimizin Heydər Əliyev dövründə bağlanan əsrin müqaviləsi bütün iqtisadi imkanlardan istifadə edilməsinə yol açdı. Bu gün ölkəmizdə iqtisadi inkişafına görə lider dövlətlərdən birinə çevrilmişdir. Ona görə yeni yaradılan sahibkarlıq obyektləri Milli İqtisadi Model əsasında yaradılarsa həmin obyektlərdə məqsədyönlü, planlı və mütəşəkkil işlər aparılarsa iqtisadiyyatına, xüsusilə neft və qaz hasilatına görə dünya iqtisadiyyatının mərkəzlərindən birinə çevrilmiş ölkəmizin iqtisadi qüdrəti günbəgün artmaqdadır.

Milli İqtisadi Model insanın məhdud ehtiyaclarının qeyri-məhdud ehtiyatlarla ödənilməsi haqqında elmi konsepsiyadır. Hansı ki, bu konsepsiya ölkələrin özləri üçün lazım olan hər cür mal və xidmət istehsal edə bilmə qabi-liyyətinə malik olmasının, öz xərclərini daxildən və xaricdən borc almadan təmin edə bilməsinin adı və formuludur. Bu mənada Milli İqtisadi Model ölkələrin inkişafının və iqtisadi müstəqilliyinin yoludur.

Milli İqtisadi Model İqtisadiyyatın yalnız bir sahəsini deyil, bütün sahələrini bütövlükdə əhatə edir (1)

Ali məktəblərin və eləcə də orta ixtisas məktəblərinin iqtisadiyyat yönümlü fakültələrində tələbələrə belə informasiyaların verilməsi onların sahibkarlıq hissi tərbiyəsini də inkişaf etdirmiş olur.

Kütlənin iqtisadi biliklərə yiyələnməsi çox vacib şərtlərdəndir. Vaxtilə K.D.Uşinski deyirdi ki, əgər məktəb oxuyursa, deməli bütün xalq oxuyur. Doğurdan da hələ uşaqlara məktəbdə iqtisadiyyatla, sahibkarlıqla bağlı dolğun biliklər verilərsə, onla müstəqil həyata başlayanda bu bilik, bacarıqlardan bəhrələnə bilərlər. Belə olan təqdirdə bütün xalq kütlələrinin iqtisadiyyatımızın inkişafına töhfələr vermək imkanları çoxalar. Müstəqil həyata qədəm qoyan gənclərin bir qisminin incəsənət menecmentinə maraq göstərmələri, incəsənət menecmenti sahəsində nüfuz qazana biləcək qruplar yaratmağa meyl etmələri onların sahibkarlıq hissi tərbiyəsinin inkişafı kimi dəyərləndirilməlidir.

Tələbələrə iqtisadi inkişafla bağlı məlumat verərkən iqtisadi inkişafın incəsənət menecmentinə təsiri barədə də informasiyalar vermək faydalıdır. Bu zaman əvvəlcə menecment, onun mahiyyəti və məzmunu barədə məlumatların verilməsinə ehtiyac duyulur.

Menecment sözü ingilis dilindən götürülüb, mənası idarəetmə, təşkiletmə deməkdir. Bazar münasibətlərinə keçid şəraitinin qarşısında duran ən mühüm vəzifələrdən biri də müəssisələr (təşkilatlar, birliklər) səviyyəsində menecmentin nəzəri və metodoloji problemlərini araşdırmaq və həll etməkdir (5, 5).

İncəsənət menecmenti isə müstəqillik dövründə incəsənətlə bağlı təşkilatların, birliklərin, idarələrin, özəl sektorlarda fəaliyyət göstərən teatr truppalarının, musiqi kollektivlərinin, rəssamlar ittifaqlarının, digər incəsənət qurumlarının fəaliyyətinə istiqamət verən nəzəri və metodoloji problemlərin məcmusu başa düşülür.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, hazırda Qərb ölkələrində incəsənət menecmenti iqtisadi inkişafın ən mühüm tərkib hissələrindən biri hesab olunur. Ona görə ki, hər bir ölkədə iqtisadi inkişafın xalq təsərrüfatının bütün sahələrinə təsiri sayəsində incəsənət qurumlarının da inkişaf etməsinə səbəb olur. Belə inkişafın sonradan formalaşaraq təkmilləşməsi nəticəsində incəsənət menecmenti yaranmağa başlaması təbii haldır. Deməli iqtisadi inkişafın inkişaf tendensiyalarının incəsənətə təsiri onun yeni konsepsiyalarını yarada bilir. Onlardan biri də menecment anlayışı ilə bağlıdır.

Menecment sözünü ilk dəfə amerikan biznesmeni Q.Taun 1886-ci ildə mühəndis-mexaniklərin iclaslarından birində işlətmiş, bundan sonra bu söz bir məfhum kimi leksikonda istifadə olunmuşdur (5, 5).

ABŞ-da və Avropada yaranan incəsənət qurumlarının hər birinin yaranma səbəblərindən ən başlıcası yeni iqtisadi modellərin meydana gəlməsi inkişafı və təkmilləşməsidir. Hazırda elə Avropa ölkələri vardır ki, bu ölkələrdə yaranan incəsənət menecmenti öz ətrafında yüzlərlə, hətta minlərlə adamı birləşdirir.

Məsələn, müğənni Cenefer Lopesin yaratdığı musiqi qrupu öz ətrafında minə yaxın ifaçı heyətini birləşdirir. Həmin heyətin menecmenti

incəsənət menecmenti kimi fəaliyyət göstərir. Hansı ki, bu incəsənət menecmenti bir subyekt olaraq bu qurumu idarə edir.

Menecmentin predmetini idarəetmə münasibətləri təşkil edir. Menecmentin obyekti bazar münasibətləri şəraitində istehsal, ticarət, xidmət, nəqliyyat, tikinti və s. fəaliyyət sahələri ilə məşğul olan müəssisə və təşkilatlardır. Menecmentin subyektləri dedikdə isə, idarə edən və idarə olunan sistemlər başa düşülür. (5, 5). Əslən Amerikalı olsa da digər qitələrdə də öz musiqi qrupu ilə kommersiya konsertləri verrək külli miqdarda qazanc əldə edən Cenefer Lopesin yaratdığı incəsənət menecmenti dövlətə də küllü miqdarda vergi ödəyir. Belə incəsənət menecmentinin yaranması fərdi qaydada yaradıldığı üçün onların yaranma səbəbləri, metodologiyası, bir sözlə nəzəri əsasları tədqiqatdan kənarda qalır. Belə menecmentlərin tədris prosesinə gətirilməsi çox faydalıdır. Bunun üçün isə ilk növbədə incəsənət menecmentinin nəzəri əsasları yaradılmalıdır.

Menecment fənlərarası elmi biliklər sahəsi kimi də başa düşülür. Çünki elə bir sahə yoxdur ki, orada idarəetməyə ehtiyac olmasın. Məsələn maliyyə iqtisadiyyatın bir sahəsidir və onun menecmenti də vardır. Həmçinin istehsal, marketinq, innovasiya, kommersiya, informasiya və s. (5, 5). Bunlardan biri də incəsənətlə bağlı ola bilər. Yaradılan hər bir incəsənət qurumlarının menecmentinin düzgün qurulması isə bu qurumda fəaliyyət göstərənlərin iqtisadi inkişafı üçün çox faydalıdır.

Fikrimizi yekunlaşdıraraq deməliyik ki, Milli İqtisadi Model yaradılarkən bu modelə incəsənət menecmentinin yaranması prinsiplərinin də daxil edilməsi yaxşı olardı. Bu zaman incəsənətlə məşğul olanların da kommersiya qrupları meydana gələr, onların da sahibkarlıq hissi tərbiyəsinin formalaşmasına şərait yaranar.

## ƏDƏBİYYAT

1. Prof. Dr. Haydar Baş. Milli İqtisadi Model. Bakı: Bakı Dövlət Universiteti" nəşriyyatı, 2005.
2. S. Məmmədov, R. Abutalıbov, S. Quliyev, O. İsayev, M. Yusifov. İdarəetmənin əsasları. Bakı: Nurlan, 2009.
3. Nadirov A.A. Azərbaycan regionlarının sosial-iqtisadi inkişaf problemləri / "Azərbaycan Respublikasında milli iqtisadiyyatın inkişaf etdirilməsi problemləri" mövzusunda elmi-praktik konfransın materialları. Bakı, 2004.
4. T. Hacıyev. Azərbaycanda investisiyalar: gəlirlər, sənayeləşdirmə, məşğulluq. Bakı: Elm, 2009.
5. İ. Abbasov, R. Sadıqov. Menecment. Bakı: Bakı Biznes Universitetinin nəşri, 2013.

**Л. Алекберова**

## ВЛИЯНИЕ НАЦИОНАЛЬНОЕ МОДЕЛИ ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ ВЗВЕЗИ С ВОСПИТАНИЕМ ГУВЕНВ ПРЕДПРИНИМАТЕЛЬСТВО И ИСКУССТВА МЕНЕДЖМЕНТА

### *РЕЗЮМЕ*

В статье анализируется содержание модели национальной экономики. Отмечается, что правильное применение национальной экономической модели имеет большое значение. Так же поясняется роль экономических моделей в экономическом развитии нашей страны. В статье отмечается, возможности влияния экономической модели на менеджмент искусством. Автор статьи наряду с влиянии всего этого развитие чувства предпринимательства у подрастающего поколения отмечает возможности оказания воздействия па их экономическое благополучие

Автор статьи впервые выдвигает новые идеи относительно воспитания чувства предпринимательство влияния по сеть, содержание цели и место менеджмента искусство.

**L.Alekberova**

**INFLUENCE OF THE NATIONAL MODEL ECONOMIC DEVELOPMENT OF VZVEZI WITH THE EDUCATION OF GUVENN ENTREPRENEURSHIP AND THE ART OF MANAGEMENT**

***SUMMARY***

The content of the model of the national economy is analyzed in the article. It is noted that the correct application of the national economic model is of great importance. The role of economic models in the economic development of our country is also explained. The article notes the possibility of the influence of the economic model on the management of art. The author of the article, along with the impact of all this, the development of the sense of entrepreneurship among the younger generation notes the possibility of influencing their economic well-being. The author of the article for the first time puts forward new ideas regarding the upbringing of the sense of entrepreneurship of influence over the network, the content of the purpose and the place of management of art

**Redaksiyaya daxil olub:** 05.02.2018